Bakı Slavyan Universitetinin

ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası | 2019-№2 | Серия общественно-политических наук

**Əliyeva Lalə Ağamirzə qızı**
*Bakı Dövlət Universiteti*
*lala_aliyeva@bsu.edu.az*

# AZƏRBAYCAN VƏ QAFQAZ XALQLARININ AKKULTURASİYASI TARİXİ PERSPEKTİVDƏ

***Açar sözlər:*** *Qafqaz, akkulturasiya, inkulturasiya, din, identiklik, etnik rəngarənglik*

***Ключевые слова:*** *Кавказ, аккультурация, инкультурация, религия, идентичность, этническое разнообразие*

***Keywords:*** *TheCaucasus, acculturation, inculturation, religion, identity, ethnic diversity*

Mədəni və etno-linqvistik baxımdan rəngarəng olan Qafqaz uzun tarixi prosesdə xalqlar arasında akkulurasiya prosesinin araşdırması baxımından diqqətəlayiq bir regiondur. Tarixi perspektivdə və müxtəlif formalarda bir-biri ilə qarşılıqlı təsir prosesində bu xalqlar arasında yerli mədəniyyətlərin transformasiyasına və bu mədəniyyətlərdə yeni xüsusiyyətlərin yaranmasına gətirib çıxarmışdır. Avropa və Orta Şərqin kəsişdiyi coğrafi məkanda yerləşən Qafqaz regionu tarixən fərqli mədəniyyətlərin təsirinə məruz qalmışdır. Başqa sözlə, bu xalqlar həm bir-birinin, həm də yerləşdikləri geosiyasi məkanın təsirlərinə məruz qalmış, onların akkulturasiyası baş versə də, bu assimilyasiyaya gətirib çıxarmamışdır. Bu araşdırmanın məqsədi Qafqaz xalqları arasında özünəməxsus akkulturasiya prosesi və onun nəticələrinin tədqiq edilməsidir.

Təqdim olunan elmi araşdırmanın qarşıya qoyduğu vəzifələrdən ən başlıcası Qafqaz regionunda dini və etnik rəngarənglik fonunda müşahidə olunan akkulturasiya prosesinın tarixi perspektivdə incələnməsidir. Əsrlərlə yanaşı yaşayan Qafqaz xalqları arasında özünəməxsus dini və etnik identikliyi qoruyub saxlamaqla,

onların bəzi mədəniyyət xüsusiyyətlərinin akkulturasiyası baş vermişdir. İslam dini ilə bağlı bəzi cəhətlərin qonşu xalqlar arasında hansı şəkildə müşahidə edilməsi və onların tarixi kökləri araşdırma zamanı təhlil edilmişdir.

İslam dinin meydana gəldiyi ilk zamanlardan Qafqazın xristian əhalisi islam sivilizasiyasının təsirinə uğramışdır. Belə ki, artıq ilk raşidun xəlifələri zamanından regionda ərəb istilası başlamışdır. Məlimdur ki, ərəb işğalı və ərəblərin kütləvi köşürülməsi bütün Cənubi Qafqazı əhatə etsə də, bu tarixi proses yalnız Azərbaycan əhalisinin dini və mədəni baxımdan identikliyini və aid olma hissini dəyişməyə qadir olmuşdur. İslam dinini qəbul edən əhali bütünlüklə yeni bir sivilizasiyaya, onu qonşularından fərqləndirən adət-ənənə və dəyərlər toplusu ilə qaynayıb qarışırlar. Lakin xristian əhali öz dini identikliyini saxlamaqla, həm də ento-linqvistik varlığını qorumağa nail olmuşdur. Bununla belə, müsəlman qonşuları ilə uzun əsrlər boyu yanaşı yaşama təsirsiz ötüşməmişdir. Başqa sözlə, Azərbaycanın gürcü qonşuları və hazırda Cənubi Qafqazın sakinləri olan ermənilər xristian kimliklərini qoruyub saxlasalar da, qonşu müsəlmanların böyük təsirinə məruz qalmışlar. Bir sıra araşdırmalarda adətən islam dinində xristian adətlərindən alınma xüsusiyyətlərin qabardıldığını görürük. Sanki islam bir dini təlim olaraq özündən əvvəlki dinlərdən götürdüyü xüsusiyyətləri yeni konseptdə ortaya qoyur. Bunun tam tərsi olaraq müsəlman adət-ənənələrinin xristian cəmiyyətlərinə təsiri demək olar ki, az işlənmiş tədqiqat mövzularındandır. Bu elmi tədqiqatın yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə tam əks prosesin olması təsdiqlənir.

Elmi tədqiqatın nəzəri baxımdan əsaslandırılması üçün akkulturasiya fenomeni haqqında R.Redfieldin mülahizəsi diqqətəlayiqdir. Onun fikrincə, müxtəlif mədəniyyətin daşıyıcıları olan fərdlərin birbaşa kontaktı onların birində və ya hər birində orijinal mədəniyyətin dəyişməsi baş verir (5, 149) ki, bu akkulturasiyanın göstəricisidir. Akkulturasiya assimilyasiyadan fərqli olaraq elə bir prosesdir ki, bu zaman bir qrup başqa bir dominant qrupla mədəni kontakt nəticəsində ondan bəzi mədəniyyət elementlərini mənimsəyir. Bu prosesdə yeni mədəni təsirə məruz qalan qrup öz identikliyini qoruyub saxlayır, yəni assimilyasiyaya uğramır.

Qafqaz xalqları arasında akkulturasiya prosesini izləmək üçün bəzi müştərək adətləri nəzərdən keçirək. Xrisitian gürcü və erməni cəmiyyətlərində heyvan qurban verilməsi adətinin, dilək ağacına parça tikəsinin bağlanması və gedənin arxasınca su atılması və sair kimi adətlər müsəlman Azərbaycan əhalisi arasında da müşahidə edilməkdədir. Bütün bu və digər mədəniyyət xüsusiyyətlərini burada *emik* və *etik* elmi yanaşma metodları əsasında təhlil edilərək, akkultirasiyanın səviyyəsi müəyyən etməyə çalışmışıq. Təbii ki, bu inanc və adətlərin bəziləri islamdan öncəki müştərək dini təsəvvürlərin günümüzə qədər gəlib çatmış qalıqlarıdır. Lakin bunların bir qismi məhz islam dininin yayılmasından sonra yaranmış tarixi şəraitdə qonşu xristian xalqları tərəfindən mənimsənilmişdir.

İslam adət və ənənələrinin xristian qafqazlılara təsirindən bəhs etməzdən öncə islama yerli qədim inancların təsirini qeyd etmək yerinə düşərdi. Azərbay-

canda və Şimali Qafqazın bir sıra xalqları arasında dominant dini kimlik olan islam da, öz növbəsində yerli qədim dini ənənələrlə culğaşmışdır ki, bu da inkulturasiya prosesinin nəticəsidir. İnkulturasiya tədqiqatçılar təfərindən belə bir fenomen kimi izah edilir ki, bu zaman yeni dinə gələnlər köhnə ənənələr kontekstində həmin yenini əxz edirlər.(8, 664). Nəticədə qədim ənənələrin çoxlu izləri yeni qəbul edilmiş dində saxlanmış olur. Bu qədim dini ənənələr həm xristianlıqdan, həm də islamdan öncəki dini təsəvvürlərin göstəricisidir.

İslamlaşma Azərbaycanda qədim dini inancların qalıqlarını əsrlər boyu məhv edə bilməmişdir. (1, 35). Belə ənənələr arasında ən geniş yayılmış olanı *ocaq* adlanan və müqəddəs hesab edilən yerlərin ziyarət edilməsidir. Heç şübhə yoxdur ki, bu ölkəmizdə vaxtilə dərin kök salmış zərdüştilik dininin və oda sitayişin izidir. Maraqlısı budur ki, belə ibadət yerləri eyni adla digər Qafqaz xalqlarında müşahidə edilir. Təbii ki, bu da Azərbaycan xalqına məxsus qədim dini ənənələrdən birinin qonşu xristian xalqlara  təsirinin göstəricisidir. Məsələn, ermənilər *oçaq* ifadəsini işlətməklə yanaşı, ona fəlsəfi sakral məna da verməkdədirlər.

Azərbaycanda zərdüştiliyin qalıqları sırasında Novruz bayramı da göstərilməlidir. UNESCO-nun qeyri-maddi mədəniyyət siyahısında bu bayramı qeyd edən ölkələr sırasında adı sadalanan Azərbaycan Novruz bayramını öz dünyəvi milli bayramı kimi qeyd edir (2, 20). Daha dəqiq desək, Azərbaycan xalqı bu bayrama uzun əsrlərdir ki, dini anlam vermir.

Qafqazın xristian xalqları arasında diqqəti cəlb edən ən geniş yayılmış qeyri-xrisitan adətlərindən biri heyvan qurban verilməsidir. Adətən müəyyən arzunun həyata keçməsi, xəstənin sağalması, övlad dünyaya gəlməsi və ya universitetə daxil olması münasibəti ilə qoyun, keçi və bəzən xoruz qurban verirlir. Qurban kəsildikdən sonra ailə həmin əti  qonşular və tanışlar arasında paylayır.

Elmi ədəbiyyatda heyvan qurban verilməsi adətinin qədim ənənələrlə, yunan-Roma mədəniyyətinin təsiri ilə bağlı olduğu göstərilir. Daniel C. Ullucciyə görə, heyvan qurban verilməsi yunan və Roma ənənələrində əsas dini kultlardan biri olmuşdur. Lakin bu ənənəvi kulta münasibət kəskin şəkildə olmaqla IV-V əsrlərdə xristianlığın yayılıb güclənməsi ilə dəyişir və qəti olaraq rədd edilir (10, 25). Xristian dini fəlsəfəsinin əsas təməl daşlarından biri budur ki, İsa Məsihin qurban verilməsi ilə bəşər övladı xilas olmuşdur və bundan sonra qurban vermə ənənəsinə heç bir yer qalmır. Bu fakt belə bir nəticəyə gəlməyə əsas verir ki, xristian kanonlarının tam formalaşmasından sonra bu adətə qadağa qoyulduğundan, Qafqaz xristianları arasında yayılmış olan qurban vermə adətinin qaynağı əslində başqa mənbə olmalıdır. Heç şübhəsiz ki, bu müsəlman qonşuların qurban bayramı (*eid al-adha*) ilə əlaqədardır. Lamin Sanneh göstərir ki, cəmiyyətin və mədəniyyətin zəruri transformasiyası müqəddəs kitabın dinamik qəbul edilməsi fazaları ilə bağlı olub transmissiyanın mexaniki təşkili deyil (7, 27). İncilin Qafqazda yayıldığı həmən dinamik fazalardan biri VII əsrə düşür ki, bu da Ərəb Xilafətinin işğalları və xilafət tərəfindən islamın yayılması zamanı ilə üst-üstə düşür. Daha sonralarsa, re-

gion müsəlman sülalələrinin, ən nəhayətdə, Səfəvilərin və Osmanlıların xüsusi təsiri altında olmuşdur. Qeyd edilməlidir ki, bu təsirlər Qafqaz xristianlarının etnik və dini baxımdan əriyib assimilyasiya olması ilə nəticələnməmişdir, lakin bu prosesin ilk mərhələsi olan akkulturasiya baş vermişdir. Başqa sözlə, akkulturasiyadan assimilyasiyaya keçid baş verməmişdir. Qafqazın xristian xalqlarından olan gürcülər və eləcə də, ermənilər arasında geniş yayılmış heyvan qurban vermə adəti məhz akkulturasiyanın göstəricisidir.

Ermənilər arasında müasir dövrdə də geniş icra edilən *matağ* adəti heyvan qurban verilməsi ənənəsinin bariz nümunəsidir. Bu, Allah yolunda quzu, xoruz, inək, ən çox hallarda qoyun kəsilməsindən ibarətdir. Hazırkı Ermənistanda kilsə qarşısında seçdikləri bir heyvanın qurban olaraq kəsilməsi adi haldır. Hətta sovet dövründə də ermənilərin qurban kəsmə adəti mövcud olmuşdur ki, bu da professor James R. Russell tərəfindən 1982-ci ildə o zamankı Ermənistan SSR-in Sevan kəndində müşahidə edilmişdir. Bu zaman *xaçkar* qarşısında xoruz kəsildikdən sonra onun qanı xaçkara və xəstə uşağın alnına çəkilmişdir (6, 142).

Matağ çox zaman Allahdan günahın bağışlanması, sağlamlıq və ya uzaqda olan qohumun salamat qayıtması və sairin rizası üçün həyata keçirilir. Buradan aydın görünür ki, heyvan qurban verilməsi səbəbləri də qonşu müsəlmanlarla üst-üstə düşür. Əgər qurban verilən heyvan inəkdirsə, onun əti 40 ev arasında paylaşdırırlır, qoyun və quzunun qurban əti isə 7 evə paylanır (9, 2017).

Gürcü provaslav kilsəsindən fərqli olaraq, erməni qriqoryan kilsəsi qurban vermə adətini dəstəkləyir və bu adətin Habil, Nuh, İbrahim və İsaak peyğəmbərlərdən gəldiyini, hətta İsa Məsihin son şam yeməyində qurban kəsilmiş quzu əti yediyini idda edir (9, 2017). Artıq qeyd olunduğu kimi, bu, xristianlığın əsas konsepti olan İsa Məsihin bəşəriyyətin xilası üçün özünü qurban verməsi müddəası ilə ziddiyyət təşkil edir. Çünki başqa qurban verilməsinə ehtiyac qalmadığı xristianlığın təməl daşlarındandır. Başqa sözlə, xristianlıq fəlsəfəsi matağ adətini rədd etsə də, ermənilər bu adəti icra etməkdədirlər.

Burada müsəlman qonşular kimi, ermənilərin də toyda qurban kəsməsi və həmin heyvanın qanının bəy və gəlinin alnına sürtülməsi adətini qeyd etmək lazımdır. Bütün bu uyğun aspektlər təbii olaraq onu göstərir ki, qonşu müsəlman mədəniyyəti erməni qriqoryan kilsə adəti-ənənlərinə təsirsiz qalmamışdır.

İslam adətlərinə görə, ilk növbədə heyvan həmZül-hiccə ayının 10-da *eid əl-adha*, yaxud Qurban bayramında kəsilə bilər. İkinci halda müsəlmanın Allah rizası üçün uyğun bildiyi zaman və səbəb üzündən qurban kəsilməsi mümkündür. Ermənilərə məhz bu sonuncu qurban kəsmə adəti öz təsirini göstərmişdir. Bundan fərqli olaraq, gürcü xalqı ildə bir dəfə qurban vermə adətini icra edir ki, bu da məhz müsəlmanların müqəddəs Ramazan bayramında qurban kəsib bayram etməsi adətinin mənimsənilməsinin göstəricisidir. Belə ki, Gürcüstanın bir sıra xristian əhalisi pasxa bayramından yeddi həftə sonra Lomisoba qurban bayramını qeyd edir. Avropa Birliyinin Monitorinq Missiyası Lomisoba bayramını müşahidə edə-

rək belə qərara gəlmişlər ki, bu bütpərəs adətinin qalığıdır (4, 2012). Yerli əhali isə qurbanların müqəddəs Georgi üçün verildiyini iddia edirlər (3, 2014). Gürcü pravoslav kilsəsinin qadağalarına baxmayaraq, hələ də gürcü xalqı Lomisoba qurban bayramını icra etməkdə davam edir. Bu bayramın qonşu müsəlmanların təsiri ilə keşirilməsi onun eid əl-adha bayramı ilə üst-üstə düşən xüsusiyyətləri ilə öz təsdiqini tapır.

Beləliklə, Qafqazın müsəlman və xristian əhalisi arasında yayılmış adətlərin analizi göstərir ki, həm islam dini, həm də xristianlıq özlərindən xeyli əvvəlki qədim yerli adətlərlə qarışmışlar. Bu proseslə yanaşı, müsəlman adət-ənənələrinin xristian adətlərinə təsiri akkultirasiya ilə nəticələnmişdir. Təbii ki, bu uzun tarixi prosesdə baş vermişdir ki, hazırda müşahidə edilən faktlar bu tarixi prosesin bəhrəsidir.

## ƏDƏBİYYAT


1. Aliyeva, L. Pre-Islamic Beliefs and Their Vestiges in the Everyday Life of The Azerbaijan People. XII. International Turkic Culture, Art And
2. Protection of Cultural Heritage Symposium Proceedings. Jupa/Struga Macedonia, 2018, pp. 35-39
3. Intangible Cultural Heritage. Torino, Centro Studi Silvia Santagata – Ebla, 2018
4. Lomidze, Eka. Lomisoba – Religious Fervor OR Mindless Slaughter of Animals? *Georgian Journal*, June 14, 2014
5. Lomisoba celebration - the door on one side and the key on the other side of the ABL. EU Monitoring Mission in Georgia, 12.06.2012
6. Robert Redfield, Ralph Linton, Melville J. Herskovits (1936). Memorandum For The Study of Acculturation. *American Anthropologist*, Volume 38, Issue 1, pp. 149-152
7. Russell, J. (2007). The Shrine beneath the Waves. *RES: Anthropology and Aesthetics*, (51), 136-156
8. Sanneh, L. Disciples of all nations: Pillarsof world Christianity. New York: Oxford University Press, 2008
9. Sigg M.M., Pascal E., Zurlo G. (2016). Indegeniuos and Vernacular Christianity. *Wiley-BlackwellCompanion to World Christianity*, Chapter 50, Publisher: John Wiley & Sons Ltd, Editors: Lamin Sanneh, Michael McClymond, pp.664-681
10. Thong Do. Matagh: An Armenian Tradition of Helping the Poor. *The Iconic Hand* 27 April, 2017
11. Ullucci Daniel C. The Christian Rejection of Animal Sacrifice. Oxford University Press, 2011


**Aliyeva Lala Aqamirza**

**The acculturation of Azerbaijan and Caucasus peoples in the historical perspective**

**SUMMARY**

The goal of the presented research is to explore an acculturation in the Caucasus region, amid ethnic and religious diversity, in the historical perspective. Acculturation of some cultural features has occurred among the Caucasus peoples, who have been living alongside for centuries, preserving their unique ethnic and religious identity. This study analyzes the impact of Islamic traditions on the neighboring Christian population of the Caucasus.

**Алиева Лала Агамирза гызы**

**Аккультурация в историческом аспекте народов Азербайджана и Кавказа**

**РЕЗЮМЕ**

Целью представленного исследования является изучение аккультурации на Кавказе в условиях этнического и религиозного разнообразия в исторической перспективе. Аккультурация некоторых культурных особенностей произошла среди народов Кавказа, которые веками жили рядом, сохраняя свою уникальную этническую и религиозную идентичность. Данное исследование анализирует влияние исламских традиций на соседнее христианское население Кавказа.

*Rəyçi: dos. B.Ş.Şabıyev*